HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

31 dekabr 2015-ci il
№0014 (14)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | "იენი იოლი" საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## 31 DEKABR DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜDÜR



Bu gün dünyada 50 milyondan çox azərbaycanlı yaşayır.

Azərbaycanlılar minilliklər boyu özlərinin tarixi torpağı olan Azərbaycan ərazisində yaşayaraq, bəşər sivilizasiyasına böyük töhfələr veriblər. Müharibələr, inqilablar, hərbi münaqişələr, dünyada gedən ictimai-siyasi proseslər nəticəsində Azərbaycan parçalanıb, azərbaycanlıların bir qismi yurd-yuvalarından didərgin salınıb, deportasiyalara məruz qalıb, iş tapmaq, təhsil almaq məqsədi ilə doğma Vətəni tərk edərək başqa ölkələrdə məskunlaşıblar.

Uzun bir dövr Vətəndə yaşayan azərbaycanlılar başqa ölkələrdə məskunlaşmış həmvətənliləri ilə görüşmək, əlaqələr yaratmaq imkanından məhrum olublar. Sovet dövlətinin qadağaları qardaşın qardaşla görüşməyinə imkan vermirdi. Sovet rejiminin zəifləməyə başladığı 1980-ci illərin sonlarında Azərbaycan xalqı öz həmvətənləri ilə əlaqələr yaratmaq üçün səylərini artırdı.

Dünya Azərbaycanlılarının Həmrəylik Gününün əsası 1989-cu il dekabrın axırlarında Naxçıvanda sərhədlərin (SSRİ-İran sərhədləri) dağılması zamanı qoyuldu. Şimali və Cənubi Azərbaycan arasındakı sərhəd dirəkləri dağıdıldı. Bu vaxt İstanbulda türkdilli xalqların Konfransı keçirilirdi. Konfrans dünya azərbaycanlılarının həmrəyliyinin qeyd olunmasına qərar verdi.

1991-ci ilin 16 dekbrında Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq, dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etdi. Beləliklə bütün azərbaycanlılar üçün 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd edilir.

## DÜNYADA YAŞAYAN AZƏRBAYCANLILARIN SAYI BARƏDƏ MƏLUMAT YAYILDI

Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi 42 ölkədə yaşayan azərbaycanlıların statistikasını təqdim edib.Təqribi sayı 50 milyon nəfər olan dünya azərbaycanlılarının 10 milyondan çoxu hazırda mühacirətdə yaşayır.

Bu gün azərbaycanlıların ən çox məskunlaşdığı ölkələr qeyri-rəsmi məlumatlara görə, İran, Türkiyə və Rusiyadır. İranda 30 milyon, Türkiyədə 3 milyon, Rusiyada isə 2 milyon azərbaycanlı yaşayır.

Eyni zamanda ABŞ, Almaniya, Ukrayna da azərbaycanlıların çox yaşadığı ölkələr içərəsində liderlik edir. ABŞ-da qeyri-rəsmi məlumatlara görə, 450 000, Almaniyada 200 000, Ukraynada isə 280 000 azərbaycanlı yaşayır.

Qeyri-rəsmi məlumata görə Gürcüstanda 500 min, Gürcüstanın dövlət orqanlarının açıqladığı məlumata görə isə 284 800 nəfər azərbaycanlının yaşadığı bildirilir.

DEKABR HAVASI ÜSTÜNDƏ GƏZİŞMƏLƏR 2

ALLAH EVİNDƏN OĞURLUQ EDƏNLƏR İLAHİ NİZAMI POZMAQ İSTƏYƏNLƏRDİR 3

AVROPA VƏ RUSİYA QAPILARINI AÇIR 4

VİRTUAL TƏLƏNİN REAL NƏTİCƏLƏRİ 5

ÖTƏN İL DƏ BİR YENİ İL DEYİLDİMİ? 6

SƏNƏTDƏN UMULAN HƏYA DAVASI 7

"ZARAFAT KOLLEKSİYASI 2" YENİ İL ƏRƏFƏSİNDƏ TAMAŞAÇILARI İLƏ GÖRÜŞDÜ 8

## PREZİDENT MARQVELAŞVİLİ PARLAMENT SEÇKİLƏRİNİN SAKİT KEÇƏCƏYİNƏ ÜMİD EDİR



Marqvelaşvili ümid edir ki, seçkiqabağı kampaniya sakit keçəcək, şantaj, dava-dalaş, qarşıdurma və qara piar olmayacaq.

Gürcüstan prezidenti Georgi Marqvelaşvili 2016-cı ildə parlament seçkilərinin sakit şəraitdə keçəcəyinə inanır.

Gürcüstanda 2016-cı ilin payızında hakimiyyət dəyişikliyindən sonra ilk dəfə ölkə parlamentinə seçkilər keçirilməsi planlaşdırılır. Partiyalar 150 deputat kürsüsü uğrunda mübarizə aparacaqlar.

"Ümid edirəm ki, 2016-cı ildə seçkilər ilk növbədə sakit şəraitdə keçəcək, bizim imkanımız olacaq siyasi yarışma yolu ilə siyasi həyatımıza daha çoxtərəfli dinamika verək", – Marqvelaşvili "İmedi" teleşirkətinin efirində deyib.

"Biz seçkiqabağı kampaniya zamanı şantaj, dava-dalaş, qarşıdurma və qara piar əvəzinə ölkəyə xidmət etmək üçün siyasi partiyalar arasında siyasi yarış görməliyik", – o, əlavə edib.

## GÜRCÜSTAN PARLAMENTİ YENİ HÖKUMƏTİN TƏRKİBİNİ TƏSDİQLƏDİ



Gürcüstan parlamentinin deputatları dekabrın 29-da yeni baş nazir Georgi Kvirikaşvilinin başçılığı ilə nazirlər kabinetinə etimadlarını ifadə ediblər, eləcə də "Güclü, demokratik, vahid Gürcüstan üçün" hökumət proqramını dəstəkləyiblər.

Yeni hökumətə 86 deputat etimad göstərib, 28 nəfər isə yeni hökumətin əleyhinə səs verib. "Vahid milli hərəkat" və "Azad demokratlar" partiyasından olan deputatlar Georgi Kvirikaşvilinin başçılığı ilə Nazirlər Kabinetinin yaradılmasına qarşı çıxıblar.

Xatırladaq ki, Gürcüstanın baş naziri İrakli Qaribaşvilinin dekabrın 23-də istefa verməsindən sonra yeni hökumətin təsdiq olunması məsələsi gündəlikdə duran əsas məsələyə çevrilmişdi.

Bununla da parlament Gürcüstan hökumətinin yeni tərkibini müəyyən edib, baş nazir vəzifəsinə Giorgi Kvirikaşvili seçilib.

Gürcüstan xarici işlər naziri vəzifəsinə Mixail Canelidze təyin olunub.

Yeni hökumətdə iki baş nazirin müavini vəzifəsi yaradılıb. İqtisadiyyat naziri Dimitri Kumsişvili və energetika naziri Kaxa Kaladze həm də baş nazirin müavini vəzifəsinə seçilib.

## GÜRCÜSTANIN VƏ TÜRKİYƏNİN MÜDAFİƏ NAZİRLƏRİNİN İSTANBULDA GÖRÜŞÜ OLUB

Gürcüstanın müdafiə naziri Tinatin Xidaşeli dekabrın 17-də İstanbulda türk həmkarı İsmət Yılmazla görüşüb.

Xidaşeli Azərbaycan, Gürcüstan və Türkiyə müdafiə nazirlərinin üçtərəfli görüşü çərçivəsində İstanbulda səfərdə olub. Gürcüstan müdafiə nazirliyinin məlumatına görə, Gürcüstanın və Türkiyənin müdafiə idarələrinin başçıları regiondakı təhlükəsizlik məsələsinə diqqət yetiriblər.

"Türkiyə Respublikasının müdafiə naziri son vaxtlar Rusiya və Türkiyə arasında baş verən hadisələrin inkişafı haqqında öz gürcü həmkarına ətraflı məlumat verərək, gürcü tərəfinə tərəfdarlığa və həmrəyliyə görə təşəkkür edib", – Gürcüstan müdafiə nazirliyi bildirib.

Xidaşeli bəyan edib ki, iki ölkə birgə təlim və təhsil proqramları üzərində işləyəcək.

"Biz razılaşdıq ki, artıq bizim ölkələrimiz arasındakı ikitərəfli əməkdaşlığın xüsusi, fəal və nəticəyə yönəlmiş əməkdaşlıq mərhələsinə keçməsinin vaxtı çatıb", – Gürcüstanın xarici işlər naziri vurğulayıb.



Afiq MUXTAROĞLU
amuxtaroglu@mail.ru

## *DEKABR HAVASI ÜSTÜNDƏ GƏZİŞMƏLƏR*

**Bu dekabr ayına mənim özəl bir münasibətim olduğunu bəri başdan qulluğunuza ərz edim ki, sonra nə olar, nə keçər yadımdan çıxar. Uşaqlıqdan bu ay mənim yaddaşımda qəribə izlər buraxıb. Nədənini də söyləyim ki, dekabrın gəlişi ilə qış qapının ağzını artıq kəsdirmişəm deyib, haray qoparır. Biz bu ayda payız adlı gözəlim bir fəsillə xudafisləşirik, qış adlı bizə bolluca qar-buz, çovğun, qasırğa, ay daha nə bilim mənim sevmədiyim düz bir sürü soyuqluq anladan nəsnələr vəd edən fəsillə görüşürük. Orasını da deyim ki, bizdən fərqli olaraq, əski romalılar dekabr deyəndə təqvimin onuncu ayını nəzərdə tuturdular. Türk qardaşlarımızın bu aya aralıq adı vermələri də köhnə illə yeni il arasında dekabrın bir körpü, bir bağ oluşdurması ilə ilgili olmalıdır. Mənim qəsdim dekabra kimin nə deməsini araşdırmaq yox, yeni il qabağı sinəmi deşən bir-iki məsələ barədə danışmaqdır.**

Bu məsələləri ortaya çıxarana qədər ötəri də olsa deyim ki, dekabr donmuş insan ümidlərinə bir ılıq nəfəs də verir. Hamı elə bilir ki, köhnə ildəki uğursuzluqlar artıq keçmişdə qalacaq, tarixə çevriləcək və yeni ildə ümidlərin donu açılacaq, onlara can gələcək, dirçələcəklər. Təki belə olsun, istəməyənin gözü də kor olsun. Indi biz arxada qoyduğumuz keçi ilində buraxdığımız səhvlərdən, etdiyimiz günahlardan dolayı əndişələrimizi kənara buraxıb, 2016-cı illə bağlı neçə-neçə planlar cızırıq. Qırmızı meymun ili adlandırılan yeni ildə qaz vurub, qazanc dolduracağımız ümidi iç dünyamızda elə təbədülatlar yaradır ki, dillə deyiləsi zad deyil. Bu ehtizazlarımızı dillə desək dilimiz yanıb, kösöv kəsilər. Bu məqamda bizə mütləq bir saz gərəkdir ki, dilimiz yanıb pörşələnməsin. Saz tapılmayanda bir gözəlin başından üç tel ayırıb dınqıldatdıqmı müşkülümüz çözüləcək. Bizim sazımız var, sazı sinəmizə basıb sözümüzü deyəcəyik. Misal üçün bir afrikalı tam-tamını döyəcləyib dərdini söyləyəcək. Bir başqası da nəsə bir andır tapıb ürəyini deşənləri musiqinin müşaiyəti ilə bu qoca dünyanın qabırğasına döşəyəcək.

Dekabr deyilən bizdən iki suala cavab tələb edir. Birincisi, nə etmişik; ikincisi, nə etməliyik. Bax, bu yerdə adamın canına vicvicə düşür, biçarə Kərəmi ağlamaq tutur. Doğrudan axı, biz nə etmişik? Sözün gəlişi, hökumətimiz açır sandığı, tökür pambığı ki, yolu belə çəkdirdim, iş yerini belə açdım, aylığıdonluğu belə artırdım, sözmü qəhətdir, bu qəbildən bir sürü sözü üyüdüb tökür. Yeni iqtidar yeni il ərəfəsində bir növ hesabat verib, ciyərləri dolusu nəfəs alır, şükür bu ildən də canımız belə qurtardı pozası alır. Bəli, bu iqtidarımızın dilindən çıxanlardır, bunu heç kim inkar edə bilməz. Başımızı qaldırıb bu tərəfə baxanda müxalifətimizin üzündə bir qəribə kinayəli təbəssüm görürük, Allah bunu heç bir bəndəsinə göstərməsin. Müxalifətimiz bülbül kimi şaqıyıb şövqlə iqtidarın artıq tükəndiyini, insan haqlarını müdafiə edə bilmədiyini, verdiyi vədlərin heç beşdə birini də yerinə yetirmədiyini yadımıza salır.

Nə etməliyik sualına dair bir-iki tutarlı fəlsəfi cümlə quraşdırmamız qalıb ki, onun da altından bir təhər çıxmağa cəhd edəcəyik. Həm də bu məqamda bizdən yeni Amerika-zad kəşf etmək tələb olunmur. Nədən ki, kor-kor, gör-gördür. Yaxın Şərqin müharibə tonqalının istisinə get-gedə daha çox insan qızınırmı? Qızınır. Neft urvatsız olub qiymətdən düşürmü? Düşür. Milli valyutalar can çəkişməsindədirmi? Bəli. Canım sənə desin, ərzaq bahalanırmı, vətəndaşın cibi boşalırmı, bankların müştəriləri artırmı, daha nə zəhrimarlar baş verirmi? Verir. Bütün bu sualcavab oyununda mənim sadaladıqlarımın hamsını təsdiq edəcəyinizdən tam əminəm. Ekspertlərin 2016-cı il üçün bəd proqnozlar verdiyi azmış kimi, rəmmallar, falçılar, astroloqlar ordusu da üzümüzə gələn ildə işlərin fırıq olmasını qafamıza taqqıldatmaqdadır. Indi biz nə etməliyik?

**Vallah, bu suala mənim cəmi bircə cavabım var. Bu cavabımın sizi qane edib, etməyəcəyini bilməsəm də, sizinlə bölüşməyi özümün boyunumun borcu sayıram. O üzdən də cavabımı səsləndirməyin əsil məqamı olduğu gümanı ilə deyirəm: heç vaxt, heç bir halda ümidinizi üzməyin, hər şeyin axırının xeyirli olacağı şəksizdir. Bax, özünüz də görəcəksiniz ki, 2016-cı ildə nə qədər faydalı işlər görüb, külfətinizin üzünü güldürmək mümkündür. Yeni iliniz sayalı, yeni iliniz düşərli olsun!**

## İKİNCİ KOSALIDA İSLAM PEYĞƏMBƏRİNİN MÖVLUD GÜNÜ QEYD OLUNUB

Dekabrın 24-də Marneuli rayonunun İkinci Kosalı kəndində fəaliyyət göstərən İkinci Kosalı İslam Mədrəsəsində həzrəti Məhəmməd Mustafanın (s.ə.s) mövlud günü qeyd olunub.



Tədbiri mədrəsənin müdiri Hacı Natiq Əliyev Qurani Kərimdən ayələr tilavət edərək, açıq elan etmişdir. Tədbirdə Bütün Gürcüstan Müsəlmanları İdarəsinin müftisi Hacı Yasin Əliyev, Türkiyənin Gürcüstandakı səfirliyinin dini işlər üzrə müşaviri Nəbi Gümüş, GYMD-nin sədri Musa Hacıyev, Marneuli müftisi Etibar Eminov və digər imam və din xadimləri iştirak etmişlər. Mərasimdə peyğəmbərə həsr olunmuş şeirlər və ilahilər səsləndirilmişdir. Mərasimdə çıxış edənlər İslam peyğəmbərinin mübarək əməllərindən, onun dünyaya gəlişi ilə bəşəriyyətin qazandığı dini-əxlaqi, ruhi-mənəvi dəyərlərdən bəhs etmişlər.

Tədbir daha sonra mövlud süfrəsi arxasında davam etdirilmişdir.

## GYMD-DƏ DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜ QEYD OLUNUB



31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik günü ilə əlaqədar təkcə Azərbaycan Respublikasında deyil, dünyanın müxtəlif ölkələrində bayram tədbirləri keçirilir. Harada yaşamasından asılı olmayaraq, istənilən Azərbaycan türkünü ana vətənlə bağlayan müqəddəs bir hissin olması təbiidir.

Dünya Azərbaycanlılarının Həmrəylik günü münasibətilə ölkəmizdə də silsilə tədbirlər keçirilib. Paytaxt Tbilisidə və regionlarda keçirilən tədbirlər bu qəbildəndir.

Dekabrın 29-da Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Dərnəyinin Qardabanidəki ofisində bu gün münasibətilə tədbir təşkil edilmişdir. Tədbiri giriş sözü ilə təşkilatın sədri Musa Hacıyev açaraq, tədbir iştirakçılarını həmrəylik günü münasibətilə təbrik etmişdir. İdarənin məsul işçisi Hacı Bəkiroğlu çıxışında həmrəylik gününün əhəmiyyəti barədə cəmiyyətin fəallarına ətraflı məlumat vermişdir.

"Yeni yol" olaraq biz də xalqımızı bu bayram münasibətilə təbrik edir, harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlıya dinclik və firavanlıq arzulayırıq.

## KOSALI MƏKTƏBİNDƏ BİRİNCİLƏRİN BAYRAM ŞƏNLİYİ KEÇİRİLDİ

Dünyanın əksər ölkələrində, eləcə də bizim ölkəmizdə 2016-cı təqvim ilinin gəlişi ilə bağlı müxtəlif bayram tədbirləri düzənlənir. Yeni ilin gəlişinə qədər və Yeni ildən sonra da bu bayram şənlikləri davam etdirilir. Müxtəlif xalqların, müxtəlif dinlərin nümayəndələrinin sevinclə qarşıladığı bu mərasim ən çox kiçik yaşlı uşaqların əyləndiyi, atılıb-düşdüyü və ən ümdəsi də Yeni ilin baş obrazı Şaxta babadan hədiyyə gözlədiyi bir bayramdır.



Bu günlərdə Qardabani rayonundakı Kosalı ictimai məktəbinin birinci sinif şagirdləri də belə bir bayram tədbiri hazırlamışdılar. Bayram tədbirində sinif rəhbəri Zemfira Allahverdiyeva, məktəbin direktoru Mahmud Mehdiyev, məktəbin müəllimi Maya İskəndərova çıxış edərək, birinciləri yeni il bayramı münasibətilə təbrik etdilər.

Birincilər sinif rəhbərləri Zemfira Allahverdiyevanın rəhbərliyi altında bir-birindən maraqlı mahnı, rəqs, şeir və səhnəciklərlə tamaşaçıların rəğbətini qazandılar. Bayramsayağı bəzədilmiş sinif otağında təşkil edilmiş yolka şənliyi kiçikyaşlı məktəblilərin hazırladığı rəngarəng nömrələrlə xoş ovqat yaradırdı. Yeni ilə həsr olunmuş mahnıları, şeir parçalarını ifa edən balacaların çıxışları alqışlarla qarşılandı. Abdullah, Ülkər, Qızılgül, Royal, Ruhi, Kamilə, Elcan, Fəridə, Simar, Nərmin, Nazlı, Alsu, Nurxan, Nail, Havaxanım, Pinar, Tünar, Mənsurə, Sunay, Sarı, Fidan və Vüsal toplaşanlar qarşısında bacarıqlarını nümayiş etdiriblər. Balaca aktyorların – Fəridə, Rail, Haley, Zaur və Poladın ifasında nümayiş etdirilən "Tık-tık xanım" tamaşası, kollektiv şəkildə ifa olunan xalq və müasir bal rəqsləri balacalara və onların tamaşaçıları olan müəllimlərə və valideynlərə xoş anlar yaşatdı.

"Yeni yol"

## İDFİ DÖVLƏT MÜƏSSİSƏLƏRİNDƏ ƏMƏK HAQQI SİYASƏTİNİN MONİTORİNQİNİ APARIB

İnformasiya azadlığının inkişafı institutu (İDFİ) dövlət müəssisələrində əmək haqqı siyasətinin monitorinqini davam etdirməkdədir. Qeyri-hökumət təşkilatı bu dəfə bu ilin altı ayı ərzində dövlət çinovniklərinə verilən maaş və mükafatlar haqqında məlumatları yayıb.

İDFİ-yə yalnız Gürcüstanın iqtisadiyyat və daxili işlər nazirlikləri bu cür informasiyaları təqdim etməkdən imtina ediblər. Bu nazirliklər vəzifəli şəxslərin maaş, mükafat və əmək haqlarına olunmuş əlavələr barədə ümumi göstəricilərlə kifayətlənmişlər. Buna görə də, adı çəkilən idarələrdə əmək haqqı siyasətini təhlil etmək mümkün olmamışdır.

Təşkilatın məlumatına görə, 2015-ci ilin altı ayı ərzində 14 nazirliyin və dövlət nazirləri aparatının əməkdaşlarına 5 477 391 lari verilmişdir. Bu məbləğin də 945 229 larisi mükafat şəklində, 4 532 162 larisi isə əmək haqqına əlavə kimi ödənilmişdir.

# ALLAH EVİNDƏN OĞURLUQ EDƏNLƏR İLAHİ NİZAMI POZMAQ İSTƏYƏNLƏRDİR

*İndi mən durub əfəndimə söyləsəm ki, dünyanın mizanı pozulub, məni qınağa da çəkə bilərlər, lap mühakimə də edə bilərlər. Və yaxamdan yapışıb soruşarlar ki, sən hardan bilirsən, sənə kim deyib dünyanın mizan tərəzisinin pozulduğunu. Siz elə güman etməyin ki, mən əldə ölənin biriyəm və mənə yönəlmiş bu suala cavab verməkdə aciz qalacam, belə xırda-para bir zadın qarşısında maçıyıb, cavab verə bilməyəcəm. Orasını da diqqətinizə çatdırım ki, mən sözü boş yerə, havaya danışan adamlardan deyiləm. Amma bu məqamda təvazökarlıqdan uzaq bir üslub seçdiyimin də fərqindəyəm. Nə yazıq ki, artıq ox yaydan çıxdığından mən bu iddialı danışığımı düzəltmə imkanını da itirmişəm. Uzunçuluq olmasını istəmədiyimdən bir an əvvəl dünyanın nizamının pozulması məsələsinin üstünə qayıtmağın daha doğru olduğu qənaətindəyəm.*

Deyəcəksiniz ki, Suriya məsələsini demək istəyirsən, bundan xəbərdarıq. Neftin qiymətinin ucuzlaşmasından danışmaq fikrindəsənsə, bundan da az-çox xəbərimiz var. Rusla türkün arasının dəyməsindən danışmağına heç ehtiyac da yoxdur, toydavayda elə danışılan bu deyilmi?

Hökumətimizin istefasından, yenisinin gəlişindən bizi xəbərdar etmək niyyətindəsənsə, özünü yorma, biz fil qulağında yatmamışıq ki, bizim də olandan-qalandan bildiyimiz şeylər var. Hardan desəm ordan kəsib, bilirik deyəcəyiniz də mənə bəllidir. Sizin haqqınız çatır ki, niyə gül kimi vaxtımızı alırsan sualı ilə məni divara dirəyəsiniz. Mən də qurd ürəyi yemişin biri kimi sizə üz tutub deyərəm ki, başınıza dönüm, səbrinizi basın, mən hələ sözümün canını indi-indi demək istəyirdim, siz aman vermədiniz. Burada kor şeytana yağlı bir lənət göndərib sözümün canını deyim, mənim də canım qurtarsın, sizin də.

Yəqin qulağınıza dəymiş olar ki, Tiflis məscidinə tamah məqsədilə girib, oğurluq etmişdilər. Arası bir şey çəkmədi ki, hüquq mühafizə orqanları oğrunu yaxaladı, məsciddən apardığı bilgisayarı əşyayi-dəlil kimi götürüb, oğru ilə da yəqin, qanun çərçivəsində davrandılar. Orasını da deməden keçmək istəmirəm ki, oğurluq edən şəxs bizim əhli-müsəlmanlardan yeniyetmə gənc bir zat imiş. Zaman-zaman məscidlərdən oğurluq edənlər haqqında qulağımıza xəbərlər dəyir, əlsiz-ayaqsızlar üçün, yetimyesirlər üçün nəzərdə tutulmuş naziri, fitrəni oğurlayanlar barədə məlumatlar alırıq. Tiflis məscidindəki oğurluğun ardınca, Kaxeti tərəflərdə kilsələrə-monastırlara qənim kəsilən bir nəfər də yaxasını hüquq mühafizə orqanlarının əlinə verməli oldu. Elə burada sözarası asayiş keşikçilərimizə quru ağızla da olsa, bir sağ olun, var olun deməkdən özümü saxlaya bilmirəm. Verilən rəsmi məlumatlardan belə bəlli oldu ki, Laqodexidə, Gürcüaanidə xristianlara məxsus müqəddəs yerlərə əl uzadan zat "xristian" imiş. İndi bəlkə də çoxlarınızın beynindən ildırım kimi



oğrunun nə dini, nə də milliyyəti olmur fikri keçsə də, mən yüz faiz əmin ola bilərsiniz belə bir şeyi ifadə etmək niyyətində deyiləm.

Mənim qəsdim sizə dünyanın nizamının pozulması barədə bir-iki ağlabatan söz söyləməkdir. Fəqət yenə bəziləriniz alıcı quş kimi üstümü kəsdirib, məni məhşər ayağına çəkmək niyyətindəsiniz və məni sözümün Mustafasını deməyə tələsdirirsiniz. Mən də bunu sizin gözünüzdən oxumaqda mahir bir adamam. Yenə özünü tərif kimi bir şey alındı. Nə olar, qüsura baxmayın, atalarımız, qul xətasız olmaz dediyindən, mənim də ayağım bir balaca yer alıb. Düzü məni düşündürən və bir balaca da əndişəyə salan müsəlmanın və ya xristianın oğurluqla məşğul olması deyil. Nədən ki, hər gün minlərlə oğurluq faktı eşitməkdən onsuz da qulağımız qızışıb. Hətta bəzən oğurluq edənlərə haqq qazandırmaq belə istəmişik. Oğurluğun günah olduğunu bilə-bilə, oğrunu doğru kimi görmək niyyətimiz də olub. Axı, "oğrudan oğruya mal haladır", "malını yeməyənin malını yeyərlər", "oğru yadına daş salmaq", "ev yiyəsi gedənə yanır, oğru qalana" kimi deyimlər göydən düşməyib, yerdən çıxmayıb. İnsanların uzun illərin təcrübəsindən bu cür qənaətlərə gəldiyini qəbul etmək də olar.

Bəzən düşünürük ki, filan oğrunun başqa çarəsi olmadığından bu yola baş vurub, yoxsa elə adam deyil ha, başqasının malına əl uzada. Bu qənaətlərimiz də hardasa doğru kimi səslənə bilər. Amma Allah evi saydığımız bir məkandan oğurluq etmək dünyanın nizamının pozulmasına dəlalət etmirmi? Bütün dinlərin oğurluğu günah olaraq dəyərləndirməsi barədə yüzlərlə misallar da gətirmək mümkündür. Oğurluq malın halal maldan fərqli olaraq haram olmasını da bilməmiş deyilik. Elə oğrunun özü də bunu fərq edə bilir, məncə.

Ancaq Allahın evindən nəyisə oğurluq yolu ilə aparmaq, qiyamətin bəlirtisi, dünyanın sonunun yaxınlaşma əlaməti deyilmi? Həm də götürdüyü nəsnənin əlsiz-ayaqsızlar üçün nəzərdə tutulduğunu oğru da bilməmiş olmaz. Özünə haqq qazandırmaq üçün oğru mən də Allahın bəndəsiyəm və Allahın bəndəsi olduğumdan mən də onun evindən nəyisə götürə bilərəm kimi bir iddiada da bulunub, özünü təmizə çıxarmaq istəyə bilər. Bunun nə dərəcədə doğru bir iddia olduğunu isə hər şeyə qadir, hər şeyi bilən Allah özü müəyyənləşdirib, onu öz adil qanunları ilə də mühakimə edər fikriylə bu qəliz yazımızın üç nöqtəsini qoymağın vaxtının çatdığını düşünürəm...

A.M. ALISOYLU

## BÜTÜN ARZULAYAN ŞƏXSLƏR MƏHKUMLARA KİTAB HƏDİYYƏ EDƏ BİLƏRLƏR



Gürcüstanda "Məhkumlara kitab hədiyyə et" aksiyası həyata keçirilib. Aksiyada istənilən arzu edən şəxs iştirak edə bilib. Tədbir 25-27 dekabr tarixində Yeni il kitab festivalı çərçivəsində Milli parlament kitabxanasında təşkil olunub.

Kitablar Batumidəki 3 saylı həbsxananın məhkumlarına göndəriləcək. Təşkilatçıların rəyinə görə, burada müasir ədəbi əsərlərə daha çox ehtiyac var.

"Bu aksiya ilə biz həbsxana kitabxanasını zənginləşdirəcək, məhkumların yeknəsəq həyatlarını bir qədər dəyişdirəcək, bu yolla onların Yeni ilini təbrik edib, onları başa düşdüyümüzü söyləyəcəyik", – təşkilatçılar bəyan edib.

Bununla belə məhkumlara pornoqrafiyaya, inşaat üzrə təlimatlara, odlu silahların və partlayıcı maddələrin hazırlanmasına dair, habelə irqi, dini və ya milli nifrət ideyaları daşıyan kitablar verilməyəcək.

Festival Gürcüstan Milli parlament kitabxanasının dəstəyi və Gürcüstan kitab nəşri və yayımı agentliyinin təşkilatçılığı ilə baş tutub.

## YOL HƏRƏKƏTİ QAYDALARININ POZULMASINA GÖRƏ İNZİBATİ CƏRİMƏLƏRİN ARTIRILMASI NƏZƏRDƏ TUTULUR

DİN-in məlumatına görə, yol hərəkətinin təhlükəsizliyi proqramı çərçivəsində İnzibati Xətalar Məcəlləsində bir sıra qanunvericilik dəyişiklikləri, o cümlədən də konkret qayda pozuntularına görə cərimələrin artırılması nəzərdə tutulur.

Qarşıdan gələn nəqliyyat axınını ayıran fasiləsiz xətti kəsməyə və əks istiqamətdə hərəkətə görə İnzibati Xətalar Məcəlləsində 300 lari məbləğində inzibati cərimə müəyyənləşdirilir. Hazırda bu qayda pozuntusuna görə 100 lari cərimə tətbiq olunur.

Sürücülərin piyadalara münasibətində qayda pozuntusuna görə inzibati məsuliyyət sərtləşdirilir. Birinci dəfə qayda pozuntusuna görə 40 lari, eyni hərəkət təkrar olunduqda isə 150 lari cərimə nəzərdə tutulur. Bu gün fəaliyyətdə olan qaydaya görə piyada keçidini keçərkən, qaydanı pozan sürücülər 20 lari cərimələnirlər.

Nəqliyyat vasitələrinin idarə olunması zamanı mobil əlaqə vasitələrindən istifadəyə görə, cərimələr 10 laridən 30 lariyə qədər artırılır.

Şəhərdaxili, şəhərlərarası və ya beynəlxalq reyslərdə müntəzəm sərnişin daşıyarkən, süráti artıran şəxslərə qarşı inzibati məsuliyyət 200 laridən 300 lariyə qaldırılır.

## YENİLƏŞDİRİLMİŞ DAXİLİ TRANZİT NÖMRƏLƏRİNİN VERİLMƏSİNƏ BAŞLANACAQ




Gürcüstan DİN-nin xidmət agentliyi 1 yanvar 2016-cı il tarixindən nəqliyyat vasitələri və motosikllər üçün yeniləşdirilmiş daxili tranzit nömrələrinin verilməsinə başlayır.

Nəqliyyat vasitələri üçün nəzərdə tutulmuş nömrə nişanlarının sol tərəfində göy zolaq var, zolağın yuxarısında Gürcüstan bayrağı təsvir olunub, aşağıda isə Gürcüstanın beynəlxalq kodu – "GE" yerləşdirilib. Qeydiyyat nişanında soldan sağa doğru ağ fonda qırmızı rənglə seriya və 4 rəqəmdən ibarət nömrə yazılacaq.

DİN-nin məlumatına görə, təhlükəsizlik səviyyəsinin yüksəldilməsi məqsədilə yeni daxili tranzit nömrələrdə saxtalaşdırmaya qarşı Gürcüstan gerbi olan qoloqram yerləşdiriləcək.

Nəqliyyat vasitələrində yeniləşdirilmiş nömrələrin seriyası "GE" latın hərflərilə, motosikllərdə isə "G" latın hərfi ilə başlayacaq.

Xidmət müddəti və qiymətlər dəyişməyəcək. Bütün nəqliyyat vasitələri üçün tranzitdən istifadənin qiyməti gündə 1 lari təşkil edir.



Sahib MUSTAFA
sahib1975.sm@gmail.com

# AVROPA VƏ RUSİYA QAPILARINI AÇIR

**Gürcüstan üçün yola saldığımız ilin ən əlamətdar hadisələrinin ilk sırasında şübhəsiz ki, Gürcüstanla Avropa İttifaqı arasında viza rejminin liberallaşması məsələsi durur. Düzdur, gözlənilmədən baş nazir İrakli Qaribaşvilinin tutduğu vəzifədən istefa verməsi də ölkənin ictimai-siyasi gündəmində önə çıxan mövzulardan oldu. Lakin, siyasi elitada baş verən yüksək səviyyəli kadr dəyişiklikləri belə toxunulan mövzunun aktuallığını arxa plana keçirməyib. Bütün Gürcüstan ictimayyətini sevindirən vizasız Avropa səyahəti ayrı-ayrı kütləvi informasiya vasitələrində yetərincə işıqlandırılsa da, ictimayyətin bu sahədə maarifləndirilməsi yerinə düşərdi.**

Gürüstanın Avropa ailəsinə qovuşmaq və onun bir parçası olmaq istəyinin tarixinin XIX əsrə dayanmasına baxmayaraq, bu sahədə konkret addımlar 2012-ci ilin yayında başladı. 2013-cü ilin fevralında isə Avropa Komissiyası Gürcüstanla viza rejminin liberallaşdırılması üçün rəsmi Tbilisiyə tədbirlər planı təqdim etdi. Nəhayət, dekabrın 15-də Avropa Ittifaqının icra orqanı olan Avropa Komissiyası Gürcüstanla bağlı qeyd olunan məsələyə dair müsbət rəy verdi. Qurum hesabatında ölkəmizin bu sahədə üzərinə götürdüyü bütün öhdəlikləri uğurla yerinə yetirdiyini və tələb olunan texniki prosedur qaydaların beynəlxalq standartlara cavab verdiyi haqqında bəyanət dərc etdi. Bundan sonra Avropa İttifaqı və Gürcüstan arasında sonuncunun vətəndaşları üçün vizaların ləğv edilməsi ilə əlaqədar heç bir şərt qalmamışdır. Gürcüstanla Avropa İttifaqı arasında vizaların liberallaşmasının tam qüvvəyə minməsi üçün Avropa Komissiyasının təqdim etdiyi tövsiyənin sözügüdən ittifaqın qanunverici orqanı olan Avropa Parlamentində təsdiq olunması gərəklidir. Avropa Komissiyasının miqrasiya, daxili işlər və vətəndaşlıq məsələləri üzrə komissarı Dimitrias Avramopulosun sözlərinə görə vurğulanan qanunvericilik təklifi 2016-cı ilin əvvəlində Avropa Parlamentinə təqdim olunacaq. Bundan sonra lahiyənin müzakirə edilməsi və qəbul olunması üçün isə bir neçə ay lazım gələcəkdir.

Avropa İttifaqının Gürcüstan vətəndaşları üçün vizalararın ləğvi ölkəmiz üçün bütün müstəvilərdə faydası çox önəmlidir. Biometrik pasportlara malik olan hər bir Gürcüstan vətəndaşı 180 gün ərzində 90 gün Avropa İttifaqı zonasında sərbəst hərəkət edə bilər. Lakin, bu vətəndaşlarmızın Avropada ödənişli əmək fəaliyyəti ilə məşğul olmasını nəzərdə tutmur. Digər tərəfdən, Avropanın atdığı bu addımın separatizmdən əziyyət çəkən ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsində mühüm rol oynayacağının altını xüsusi cızmaq lazımdır. Belə ki, Abxaziya və Cənubi Osetiya regionu sakinləri Tbilisi ilə münasibətlərin çözülməsi üçün qondarma rəhbərlikləri üzərində təzyiqlərini də artmış olacaqlar. Bunun da zamanında Kremlin "vətəndaşlarmızı müdafiə edirik" bəhanəsi ilə bölgə sakinlərinə süni şəkildə payladığı Rusiya Federasiyası vətəndaşlığından və qondama qurumların vətəndaşlığından imtina edilməsinə gətirib çıxaracağını proqnozlaşdırmaq olar.

**Məhz bu baxımdan Moskvanın vurğulanan sahədə Avropaya adekvat cavabı gecikmədi. Belə ki, dekabrın 23-də Rusiya Federasiyası Xarici İşlər Nazirliyi də Gürcüstan vətəndaşları üçün viza rejminin sadələşdirilməsi haqqında qərar qəbul etdi. Bundan başqa gələcəkdə vizanın tam ləğv edilməsi haqqında ehtimallar da səslənməkdədir. Çox güman ki, ən yaxşı halda Moskvanın bu qərarı Gürcüstanda bu il keçiriləcək növbəti parlament seçkiləri öncəsi baş tutacaqdır. Şübhəsiz, vizaların tam ləğvi dinc yanaşı yaşama siyasəti yürüdən ölkəmiz üçün həmişə priaritet məsələlərdən biridir. Vətəndaşlarımızın heç bir bürokratik əngəllərə rast gəlmədən xarici ölkələrə səfər etməsi dövlətlər və millətlərarası inteqrasiyanın sürətlənməsinə təkan verən ən böyük amil olacaqdır.**

# TATARISTANDA YENİDƏN SUVERENLİK TƏLƏB EDİRLƏR

"Novaya qazeta"nın yaydığı məlumata görə, Kazanda "Tatarıstan dövlətçiliyinin problemləri" mövzusunda elmi-praktik konfrans təşkil edilib. Konfransın təşkilatçısı kimi Ümumtatar ictimai mərkəzi çıxış edib.

Göndərilmiş dəvətnamələrdə tədbirin adı bir qədər fərqli ifadə olunsa da, "Tatarıstan prezidenti postunu necə saxlamalı" məsələsinə diqqət yetirilmişdir. Bu məsələdən də müzakirələrə başlanılmışdır. Müzakirələrdə vətəndaş fəalları, alimlər, müxtəlif səviyyələrdə keçmiş və indiki deputatlar iştirak ediblər.

Məlumdur ki, federal qanun respublika rəhbərləri üçün "prezident" istilahını ləğv edib, bu günədək bu adı yalnız Tatarstan rəhbəri Rüstəm Minnihanov saxlayır. Qanun 2015-ci ilin sonunadək bu adı başqa bir adla əvəz etməyi tələb edir.

Konfransda çıxış edənlər iqtisadi potensial, elm, mədəniyyət və təhsilin inkişaf səviyyəsi baxımından Tatarstanın xüsusi rolu haqqında danışmış, respublikanın öz hüquqlarını genişləndirmək və öz işlərini aparmaq sahəsində müstəqilliyini yüksəltməyə layiq olduğunu, eləcə də yüksək vəzifəli şəxsləri necə adlandırmağı özünün müəyyən edə bilməsini vurğulamışlar.

"Prezident" adının saxlanması üçün dəlillərdən biri RF Konstitusiyasına əsaslanır. Qanunda RF-nın respublika və digər subyektlərinin dövlət hakimiyyəti orqanlarının onların özləri tərəfindən müstəqil şəkildə formalaşdırılmasından danışılır. Ən sadə və başa düşülən dəlil isə ondan ibarətdir ki, Tatarstan əhalisi 2015-ci ilin sentyabrında Minnahanovu məhz prezident seçiblər və o, belə də qalmalıdır.

Konfrans iştirakçıları tatar xalqının problemlərinə toxunaraq, ana dilində təhsil almağın mümkün olmadığından danışmışlar.

Konfrans iştirakçıları qəbul etdikləri qətnamədə Respublika Dövlət Şurasına Tatarstanın 1992-ci il Konstitusiyasının əsas maddələrini bərpa etməyi təklif etmişlər. Həmin maddələrdə Tatarstan beynəlxalq hüququn subyekti kimi suveren dövlət elan olunurdu. Tatarstan Respublikasının qanunlarının onun bütün ərazisində üstünlüyü, torpaq və yerin təkinin ümumxalq mülkiyyəti olması elan edilirdi.

# PENTAQON İD İLƏ MÜBARİZƏDƏ RUSİYA İLƏ ƏMƏKDAŞLIQDAN İMTİNA EDİB



Pentaqonda bildiriblər ki, "İslam dövləti"nə dair Rusiya ilə o halda informasiya mübadiləsi aparacaqlar ki, Rusiya Əsədin siyasi gələcəyinə dair fikirini dəyişsin. ABŞ müdafiə nazirliyinin rəsmi nümayəndəsi Mişel Baldansa bəyan edib ki, Moskva Əsədə münasibətdə strategiyasını dəyişməyəcəyi təqdirdə, Rusiyanın İD-ə dair informasiya mübadiləsi etməyə hazır olmasına baxmayaraq, Pentaqon Suriyaya dair əməkdaşlıq etməyi düşünmür.

Rusiya Baş Qərargahının baş əməliyyat idarəsinin rəisi general-leytenant Sergey Rudskoy dekabrın 25-də bəyan edib ki, Rusiya "İslam dövləti"nə qarşı ABŞ-ın başçılıq etdiyi koalisiya ilə silahlıların Suriyadakı obyektləri barədə məlumat mübadiləsinə hazırdır və belə bir addımı ABŞ-dan da gözləyir.

"Müdafiə nazirliyinin mövqeyi dəyişməyib. Moskva Əsədi müdafiə etmək strategiyasını dəyişməyənə qədər biz Rusiya ilə Suriyaya dair əməkdaşlıq etməyi düşünmürük", – Pentaqon rəsmisi vurğulayıb.

# PAKİSTANDA SHAHEEN-III BALLİSTİK RAKETİNİN SINAĞI UĞURLA KEÇİB

Pakistan ordusunun mətbuat xidmətinin yaydığı məlumatda Pakistanın "yer-yer" tipli Shaheen-III ballistik raketini uğurla sınaqdan keçirdiyi bildirilib.

"Yer-yer" tipli Shaheen-III ballistik raketinin uçuş məsafəsi 2750 kilometr təşkil edir. Raket həm adi, həm də nüvə boması atmaq qabiliyyətinə malikdir. Məlumatda bildirilir ki, raket hədəfi uğurla məhv edib, uçuş verilmiş parametrlərə uyğun hərəkət edib. Keçən il Pakistan Shaheen-I və Shaheen-II raketlərini uğurla sınaqdan keçirmişdi. Shaheen-I həm adi, həm də nüvə başlığı daşımaq qabiliyyətinə malikdir və 900 kilometr məsafəni qət edə bilir. Shaheen-II raketi isə 1500 kilometr məsafədə yerləşən hədəfi məhv etməyi, eləcə də həm adi, həm də nüvə başlığı daşımağı bacarır.

# VAŞİNQTON RUSİYAYA QARŞI YENİ SANKSİYALAR TƏTBİQ ETDİ

ABŞ hakimiyyəti Rusiyaya qarşı yeni sanksiyalar paketini təsdiqləyib. Bu barədə ABŞ Maliyyə Nazirliyinin məlumatında bildirilib.

Məlumata görə, siyahıya ümumilikdə 34 fiziki və hüquqi şəxs daxil edilib.

Sanksiyalar Rusiyanın "VTB" və "Sberbank" banklarının Ukrayna, Qazaxıstan və Avropadakı əksər törəmə qurumlarına şamil edilib. Bundan başqa, yeni siyahıya "VTB" və "Sberbank" banklarının qeyri-hökumət pensiya fondları və "VTB 24" bankı daxil edilib.

Sanksiya siyahısına həmçinin "Qals Development" şirkəti, "Novikombank" bankı, "Aviapriborostroyenie" konserni, "Sovremennıye texnoloqii", "Oboronprom", "Rosoboroneksport" və digər iri korporasiyalar daxil edilib.

Sanksiyalar həmçinin "Massandra" şərab zavodu və Yalta kinostudiyasına tətbiq edilib.

# DÜNYANIN ƏN VARLI ADAMLARININ ADI BƏLLİ OLUB

"Forbes" 2015-ci ilin ən varlı adamlarının siyahısını açıqlayıb. ABŞ da nəşr edilən jurnalın reytinq siyahısına onlayn pərakəndə satış şirkəti olan "Amazon"-un baş direktoru Ceff Bezos başçılıq edir.

O, bu il digər namizədlərə nisbətən 29,5 milyard dollar artıq qazanaraq, öz büdcəsini 58,4 milyard dollara çatdırıb.

2015-ci ilin ən uğurlu biznesmenlərinin reytinqində "Facebook" rəhbəri Mark Zukerberq ikinci yerin sahibi olub. O, bu ilki gəlirini 11 milyard dollar artıra bilib, ümumi sərvətinin həcmi isə 45,6 milyard dollar hesablanıb. "Google"-un yeni yaranmış şirkəti "Alphabet"-in baş direktoru Larri Peys jurnalın ən varlılar siyahısının üçüncü pilləsində qərarlaşıb. Onun illik gəliri 9,2 milyard dollar artaraq, 38,4 milyard dollar həcminə çatıb.

Nyu-Yorkun sabiq meri, "Blumberq"in sahibi Maykl Blumberq sərvətini 5,5 milyard dollar artıraraq 40,5 milyard dollarla 4-cü, Karlos Slimin sərvəti isə 14,2 milyard dollar azalaraq, 55,6 milyard dollara düşüb, bu isə onun 5-ci yerlə kifayətlənməsinə səbəb olub.

## YENİ İL ƏRƏFƏSİNDƏ GÜRCÜSTANDA 170-DƏN ÇOX MƏHBUS AZADLIĞA ÇIXDI

Gürcüstan prezidenti Georgi Marqvelaşvili Yeni il ərəfəsində 238 nəfər məhbusu əvf edib ki, onlardan 172 nəfəri dekabrın 25-də həbsxanaları tərk edib. Bu barədə əvf komissiyasının sədri Zviad Koridze mətbuat konfransında məlumat verib.

Komissia ümumilikdə 1,4 min məhbusun işinə baxıb. Əvf olunanların 18 nəfəri qadın, 3 nəfəri isə həddi-buluğa çatmamış şəxsdir. Lakin tam əvf yalnız 11 qadına və iki həddi-buluğa çatmamışa şamil edilib.

Cəzaçəkmə müəssisələrində əvf olunmuş 66 məhbus qalacaq ki, prezident onların cəza müddətini azaldıb.

## TBİLİSİDƏ YÜKSƏK TEXNOLOGİYALI ƏCZAÇILIQ ZAVODU TİKİLƏCƏK

Avstriyanın Humanity Holding GmbH şirkəti əczaçılıq zavodunun tikintisi üçün Humanity Georgia SC təsis edib. Zavodda həm yerli istehlak, həm də ixrac üçün 800 adda dərman hazırlanacaq.

"Partnyor fondu"nun məlumatına görə, müasir standartlara cavab verən zavod Tbilisinin şəhərətrafı Orxevi rayonu ərazisində inşa olunacaq.

"Partnyor fondu" Gürcüstan hökumətinin tapşırığı və ölkənin əmək, səhiyyə və sosial müdafiə nazirliyinin fəal iştirakı ilə, Avstriyanın Humanity Holding GmbH şirkətilə birlikdə yeni layihəyə başlayır.

"Partnyor fondu" və Humanity Georgia arasında layihəyə başlamaq haqqında razılaşma əldə olunub.

Müəssisədə 300 nəfər adam işlə təmin olunacaq, onların arasında yerli və əcnəbi mütəxəssislər də olacaq. Layihənin ümumi dəyəri 130 milyon dollar təşkil edir.

## GÜRCÜSTAN MƏKTƏBLƏRİNDƏ YOL HƏRƏKƏTİNİN TƏHLÜKƏSİZLİYİNƏ DAİR TƏDBİRLƏR KEÇİRİLİR

Tbilisinin və regionların məktəbliləri DİN-nin həyata keçirdiyi yol hərəkətinin təhlükəsizliyinə dair geniş kampaniyaya qoşulublar.

DİN-nin nümayəndələri məktəbliləri yol hərəkətinin təhlükəsizliyinə dair əlavə məlumatla tanış edib, onlara müvafiq informasiya stikerləri paylayıblar. Kampaniyanın məqsədi yol nəqliyyat hadisələrinin qarşısını almaq və cəmiyyətin yol hərəkətinin təhlükəsizliyi barədə biliklərini yüksəltməkdir. Gürcüstanda yol hərəkətinin təhlükəsizliyi proqramı çəeçivəsində müxtəlif tədbirlər keçirilir.

Dekabrın əvvəllərində Gürcüstan DİN-nin yol hərəkəti qaydalarının pozulmasına görə, cəzaları sərtləşdirmək niyyətində olduğu artıq məlumdur. Bundan başqa, tezliklə Gürcüstanın yollarında gizli patrul xidmətinin meydana çıxması da gözlənilir.

## BAKI, TBİLİSİ VƏ TEHRAN DƏMİR YOLU SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA RAZILIĞA GƏLİBLƏR

Təbrizdə "Azərbaycan dəmir yolları" QSC-nin sədri Cavid Qurbanov, "Gürcüstan dəmir yolu" SC-nin baş direktoru Mamuka Baxtadze və "İran dəmir yolları" şirkətinin baş direktoru Möhsün Pursəid Ağayinin görüşü keçirilib. Görüşdə tərəflər dəmir yolu sahəsində əməkdaşlıq haqqında protokol imzalayıblar.

Tərəflər görüşdə həm də üç ölkənin tranzit potensialının Gürcüstan və Azərbaycan vasitəsilə tranzit yüklərin İran körfəzi regionuna daşınması hesabına artırılması prespektivlərini müzakirə ediblər.

Danışıqların əsas mövzularından birini İranın mal dövriyyəsinin artırılması və bəhs olunan nəqliyyat dəhlizinin effektivliyinin artırılması təşkil etmişdir.

## KUTAİSİLİ AVTOMOBİL MÜHƏNDİSİ SÜKANI ORTADA OLAN MAŞIN HAZIRLADI

Sükanı sağda olan avtomobillərin sahibləri və idxalçıları hakimiyyətin gələn ilin martından belə maşınların qeydiyyatını qadağan edən qərarına qarşı etiraz edirlər. lakin belə bir problem Kutaisdə yaşayan avtomobil mühəndisi Vaxtanq Dvalişvilini narahat etmir. İxtisasca arxitektor olan Dvalişvili bir neçə il əvvəl avtomobil mühəndisİ olmağa qərar verərək, sükanı ortada yerləşən avtomobil yığmağa başlayıb.

Avtomobil mühəndisi belə bəyan edib ki, maşının mühərrikini "Jiquli"nin analoqu kimi yaradıb, öz avtomobil modelini isə qızının adı ilə "Mari" adlandırıb.

"İlk avtomobili mən evdə, birbaşa otaqda yığmışdım. Onu sonra pəncərədən çıxardım. Ikinci modeli 1985-ci ildə yığmışam. Bu maşın illərlə həyətdə, evin qabağında qaldı, indi qərara gəldim ki, onu bərpa edim. Başa düşürəm ki, sürücülərin yeni qanuna öyrəşmələri asan deyil, amma məni nə sol sükanlı, nə də sağ sükanlı avtomobil mövzusu narahat etmir", – Vaxtanq Dvalişvili bildirib.

## ƏN AŞAĞI ƏMƏK HAQQI TƏHSİL SAHƏSİNDƏDİR



Gürcüstanda orta aylıq əmək haqqı 930 laridir. Gürcüstan statistika xidmətinin məlumatına görə, 2015-ci ilin üçüncü kvartalında ən yüksək orta əmək haqqı maliyyə sahəsində, ən aşağı isə təhsil sahəsində qeydə alınıb.

Sakstatın məlumatına görə, maliyyə sahəsində çalışanların orta aylıq əmək haqqı 1499 laridir. Maliyyə sahəsindən sonra ən yüksək əmək haqqı dövlət idarəçiliyində qeydə alınıb. Bu sahədə əmək haqqı 1313 lari təşkil edir. Nəqliyyat və rabitə sahəsində çalışanlara 1219 lari ödənilir. Inşaat sektorunda işləyənlər 1412 lari, mədənçıxarma sahəsində çalışanlar 1228 lari əmək haqqı alırlar.

Ən aşağı əmək haqqı həmişəki kimi təhsil sahəsində qeydə alınıb və 470 lari təşkil edir. Səhiyyə işçilərinin orta aylıq əmək haqqı 843 laridir. Mehmanxana və restoranlarda işləyənlərin aylığı 613 laridir.

Kənd təsərrüfatı sahəsində muzdla çalışanların orta aylıq əmək haqqı 592 lari, balıqçılıq sahəsində isə nisbətən az olmaqla 478 lariyə bərabərdir. Emal sahəsinə gəlincə, burada orta aylıq əmək haqqı 825 lari təşkil edir.

Afayət AFİQ



## VİRTUAL TƏLƏNİN REAL NƏTİCƏLƏRİ

**Texnologiya və onun inkişaf etmiş qolları insanlıq tarixinin ən böyük naliyyətlərindən biridir. Həyatımızı hara qədər desən asanlaşdıran da elə texnologiyadır. Əslində məqsədim bunlardan danışmaq deyil, çünki görünən dağın bələdçiyə ehtiyacı yoxdur. Lakin, Nizami demiş "bir inci saflığı varsa da suda, artıq içiləndə dərd verir o da"... Yəni ki, hər şey həddində, qədərində gözəldir, əndazədən çıxdıqda olan-qalan dəyərini də itirir. Buna sözsüz ki, texnologiya da daxildir. Bu gün bir düymə ilə dünyanı evimizin içinə gətirə biləcək gücün adına internet deyilir. Hələ çox zaman interneti və telefonu icad edənin atasına rəhmət oxuduğumuz vaxtlar da olur. Çünki həyatımızı nə qədər asanlaşdırdıqlarını görmək bunu deməyimizə də haqq qazandırır. Gəlirəm işin ikinci yanına, rəhmətin lənətə çevrildiyi ana. Bəli, adı çəkilən bu vasitələr bizim yaşamımızı asanlaşdırmaq, uğur əldə etməmizə yardım etmək üçün mövcuddurlar. Ən azından biz onlardan bu məqsəd üçün istifadə etməliyik.**

Təəssüf doğuran və böyük əksəriyyətimizin də diqqətini özünə çəkən hal isə ondan ibarətdir ki, biz internet, sosial şəbəkə, telefon kimi alətlərin aludəçisi olmağa başlayırıq. Bu nəsnələr artıq bizim üçün ehtiyac, məlumat vasitəsi yox, həm də sığınacaq rolu oynamağa başlayır. Bəli, deyəsən cavab məhz elə budur, sığınacaq. Sosial şəbəkə hərisliyinin də, oyunmaniyanın da səbəbi budur. İnsanların bir-birinə soyuq olması, salamı belə robot kimi verməsi, bütün bunların ən başlıca, ən tutarlı səbəbidir. Sanki bütün bunlar insanı özündən yadlaşdırıb başqa birinə, heç tanımadığı bir adama çevirir. İnsan az qala özünün lal kölgəsi olur.

Artıq bu aludəçilik insanın ikiləşməsinə, ikili bir həyat tərzi keçirməsinə səbəb olur. Get-gedə virtual aləmdə baş verənləri gerçək kimi qəbul edən insanın psixikasında müəyyən problemlər yaranır ki, artıq bu məqamdan etibarən onun ilk növbədə özünə qaytarılması üçün, yenidən cəmiyyətə tam dəyərli bir fərd kimi qazandırılması üçün bu sahənin mütəxəssislərinin dövrəyə girməsinə ehtiyac yaranır. Onun psixikasının bərpası uzun bir zaman daxilində bir ətək xərcə başa gəlir. Bəzən bu bərpa prosesi olduqca uzun çəkir və ağrılı məqamları ilə yadda qalır. Hətta psixikasını texnoloji tələlərə qapdırmış bu adamları müalicə etmək mümkün olmur. Bu mümkünsüzlüyün ardınca isə daha ağır faciələr baş verir. Və bu faciələrin yerini doldurmaq imkanı bir dəfəlik itirilir.

Belə bir deyim var, az qala atalar sözü səviyyəsinə çatıb. "İnternet insanları bir-birindən uzaqlaşdırır." Bununla mən də razılaşırdım, indi də razılaşmıram deyə bilmərəm. Ancaq, gəlin qəbul edək ki, bu bir az toyuqmu əvvəl yaranıb, yoxsa yumurtamı məsələsini xatırladır. Axı insanın tutunacağı, sığınacağı insan olsa, o virtual aləmin qoynuna sivişməz. Yalnızlığına başqa yerdə çarə axtarmaz. Deməli, insan özü insanları itələyib, uzaqlaşdırır. Beləliklə insan robotlaşır, kobudlaşır, insanlıqdan çıxır. Manqurtlaşaraq, keçmişindən qopur, bu gününü virtual aləmə qurban verir, gələcəyi barədə isə dumanlı təsəvvürdən savayı heç nə söyləmək imkanı olmur.

**Elədir ki var, mən bu cavabda dayanıram, insanlar sevgilərini, güvənlərini və gülüşlərini sevdiklərinə tam verə bilsələr, kimsə bir-birindən qaçmaz. Əminəm. Əmin olun. Övladı ilə dost ola bilən valideyn, övladı olmayacaq insanlara dost demək məcburiyyətinə və ya məğlubiyyətinə düşməz. Virtual əyləncə səmimi ailə söhbətlərinə, ümid dolu, sevgi və anlayış dolu münasibətlərə istənilən anda məğlub olacaqdır. Beləliklə heç bir cəmiyyət, heç bir fərd lazımsız torlara düşüb ruhunu öldürməyəcək... Bundan sonra hər şey həddində və daha gözəl olacaq. Sabahlar daha işıqlı olacaq. Yeni ildə, daha çox sevmək, daha az üzülmək diləyi ilə...**



Hacı BƏKİROĞLU
hacihaciyev@hotmail.com

## *ÖTƏN İL DƏ BİR YENİ İL DEYİLDİMİ?*

**Həqiqətən də Şaxta baba varmı, yoxmu bilmirəm, amma gözəl bir aldatmaca olduğunu görürəm. Tacirlərin də bu anı fürsət bilərək dəyərləndirdikləri gözəl bir şəkildə görülməkdədir. Analar Günü, Sevgililər Günü, Yeni il cibdəki nə var, nə yoxu xərclətdikdən sonra, il boyu kredit ödətməklə təqvimdə ən yadda qalan günlər halına gəlmişdir.**

Yeni il gəldi, çatdı. Hər yan al-əlvan boyandı. Alış-veriş mərkəzləri, əyləncə parkları səsli-küylü halıyla hər kəsi qoynuna aldı. Sənətçilər hərəsi bir yanda səhnə almaq həyəcanına qapıldılar. Sanki bu bir gecə həyatlarındakı hər şeyi dəyişəcəkmiş kimi küçəyə töküləcəklər. 50 nəfər üçün nəzərdə tutulmuş məkanda 200 nəfər rəqs edəcək. 10 larilik yeməyə 100 lari ödənəcək. Nə yediklərindən, nə içdiklərindən bir şey anlamayacaqlar, amma olsun yeni il gecəsi dosta-yoldaşa "hava atacaqlar".

Sosial media hesablarından başlarında rəngli papaq, ağızlarında düdük görünəcəklər. Bir gecəliyinə nə qəm, qalacaq nə kədər. 31 dekabr axşamı yerini 1 Yanvara təhvil verdiyində 365 gün sanki zibil qutusuna atılacaq. Hər kəs yeni bir ilə yeni bir ümid və istəklə başlayacaq. Halbuki bir dəqiqə əvvəl əzib zibil qutusuna atılan il də beləcə başlamamışdımı? Nə oldu, xəyallar, ümidlər zibiləmi getdi? İndi yeni bir il, yeni ümidlərmi doğuldu?

Bu günlər üçün hazırlanan tələlərin qurbanları bunun acısını bir neçə gün sonra kredit ödəməyə başladıqda dadacaqlar. Geyindikləri təzə libasların, partlatdıqları fişənglərin heç də həmin andakı kimi nəşəli olmadığını anlayacaqlar.

Gəlin məsələyə bir də İslami nöqteyi-nəzərdən baxaq.

Hər kəs bayram edir. Ancaq kim nəyi bayram edir, bilinmir. Necə deyərlər, el hara, mən də ora prinsipi ilə hərəkət edirlər. Xristianı başa düşmək olar ki, peyğəmbərinin doğum gününü qeyd edir. Bəs müsəlman nəyi qeyd edir, onu anlaya bilmirəm. Soruşanda ki, nəyi bayram edirsən? Eyni cavablar eşidəcəksən: yeni ilin gəlişini.

Bilirəm bunu oxuyan qardaşım və ya bacım kölgəmə güllə atacaq ki, yenə başladı ağzımızın dadını qaçırmağa. Canınız sağ olsun, nə istəyirsiniz deyin, mən incimirəm. Ancaq mən yenə öz sözümü deyim. Bu yeni il bilirsiniz ki, xristian aləminin bayramıdır və onlar bayaq da dediyim kimi İsa Məsihin, yəni peyğəmbərlərinin mövlud gününü qeyd edirlər. Deyəcəksiniz bəs siz deyildinizmi İsa Məsih bizim də peyğəmbərimizdir deyən? Bəli, yenə də deyirik. Ancaq onun doğum gunu sizin bayram olaraq qeyd etdiyiniz gün deyil. Bir də ki, bir müsəlman olaraq sizdən soruşum İslam peyğəmbərinin mövlud günü də bu yaxınlarda oldu, heç xəbəriniz oldumu? Onu da qeyd etdinizmi?

Gəlin bu ilin son günlərini içkidən, günah işlərdən bir az uzaq duraraq düşünməklə, təfəkkürlə keçirək. Görək bu il nə iş gördük? Allahın bizə verdiyi ömrü harada və necə keçirdik? Sabah bunun hesabı soruşulanda nə cavab verəcəyik? Uca Allah bu ömrü, bu qədər neməti bizə boş-boşuna verməyib axı? Çünki cənabı Allah uca kitabımız Qurani Kərimdə: "Mən insanları və cinləri Mənə ibadət etsinlər deyə yaratdım" şəklində buyurur.

Maraqlıdır, bu günü bayram edən insanlar heç özlərini sorğuya çəkdilərmi ki,bəs mən yola saldığım ildə nə etmişəm? Nə qazanmışam, nə itirmişəm? Görəsən onlar yola saldıqları il ərzində dünyadan köçən yaxınlarının, qohumlarının, qonşularının bu dünyadan getməsindən bir ibrət aldılarmı? Bir gün özlərinin də dünya evindən əbədi qalacaqları axirət yurduna köçəcəklərini düşündülərmi? Heç özlərinə sual verdilərmi ki, görəsən mən bu həyata niyə gəlmişəm?

**...Hə, az qala unutmuşdum, onu da vurğulamaq istəyirdim ki, əgər Şaxta baba müsəlman olsaydı həmin dəqiqə saqqalına görə terrorçu elan edilərək, interpol xəttilə beynəlxalq axtarışa verilərdi. Elə deyilmi?..**

# YENİ İL BAYRAMI BARƏDƏ NƏ BİLİRİK

Yeni il Bayramı – ilin sonuncu günündən növbəti təqvim ilinə keçid ilə əlaqədər keçirilən bayramdır. Dünyanın müxtəlif xalqları üçün ənənəvi bayrama çevrilən bu bayram, azərbaycanlıların da məişətinə daxil olub. Hər şeyin əvvəli olduğu kimi bu bayramın da öz tarixçəsi var. Bəzi fərziyyələrə görə Yeni ili ilk dəfə qədim çinlilər qeyd ediblər. Digər mənbələrdə bu, qədim germanlar və romalıların adı ilə bağlanır.

Başqa bir mənbə isə ənənənin Mesopotamiyada yarandığını sübut etməyə cəhd edir. Yeni ilin Altay türkləri ilə bağlılığını söyləyənlər də var.

Əvvəlcə, Yeni ili, ənənəvi olaraq, dekabrın 31-dən yanvarın 1-nə keçən gecə qarşılayanlardan başlayaq: bunlar MDB məkanı ölkələri, Avstraliya, Şotlandiya, İtaliya, Avstriya, Yaponiya, Rumıniya, Kanada, ABŞ, Finlandiya və bir çox başqa ölkələrdir. Yeni il yanvarın 14-də Yunanıstana qonaq gəlir və Müqəddəs Vasili günü adlanır. Sonra Ay təqviminə uyğun Yeni il gəlir. Onun dəqiq tarixi yoxdur, çünki yazın ilk təzə Ayı çıxanda qeyd olunur. Ay təqvimi ilə Yeni ili Çində, Malayziyada, Vyetnamda, Sinqapurda, Koreyada, Monqolustanda və Asiyanın digər ölkələrində, habelə buddizmə sitayiş edənlər keçirirlər.



Müsəlmanların Hicri təqvimi ilə Yeni il birinci ayın ilk günü daxil olur. Bu tarix hər il dəyişir.

Sonra hər il gecə ilə gündüzün bərabərləşdiyi gün – martın 21-dən 22-nə keçən gecə qarşıladığımız sevimli Novruz bayramı gəlir. Novruz Əfqanıstan, İran, Pakistan, Orta Asiya və Azərbaycanda qeyd olunur. Növbəti gün, martın 22-də Yeni il Hindistanı haqlayır. Hindistanda Yeni il kimi qeyd olunan səkkiz tarix var. Aprelin 1-dən – zarafatlar və oyunlar günündə Yeni ili Odessada və Birmada qarşılayırlar. Aprelin 13-də Yeni il Şri-Lankaya və Nepala, 14-də isə Laosa gəlir. Mayya tayfaları Yeni ili iyulun 16-da qeyd edirdilər. Cibuti və Nigerdə Yeni ili avqust ayında, Suriyada sentyabrın 1-də, Efiopiyada sentyabrın 11-də, Qambiyada oktyabrın 7-də, Yəməndə noyabrın 18-də, Okeaniyada və Havay adalarında noyabrın ortalarında qarşılayırlar. Yəhudilər Yeni ili sentyabr ayının1-ci və 2-ci günü qeyd edirlər.

Oktyabrın 31-dən noyabrın 1-nə keçən gecə Hellouin adı ilə məşhur olan kelt Yeni ilini Şotlandiya, İrlandiya və Men adasında qarşılayırlar.

Bu bayramın yaranmasının azı 25 əsrlik tarixi var. İlin dəyişməsini bayram etmək adəti ilk dəfə qədim Mesopotamiyada yaranıb. Martın axırında Dəclə və Fərat çaylarında suyun səviyyəsi artanda əkin-biçin işləri başlayarmış. İnsanlar yeni ilin gəlişini də elə o zaman qeyd etmişlər. 12 gün ərzində təntənəli mərasimlər davam edərmiş. Xeyir tanrısı Mərdükün şər qüvvələr və ölüm üzərində hakimiyyəti başlayarmış. Yəhudilər Yeni il bayramı ənənəsini babillərdən öyrənərək, onu yunanlara ötürüblər. Yunanlardan isə bu ənənə Qərbi Avropaya yayılıb.

Qədim hindlilər və farslar müasir təqvimlə 22 dekabrı "Günəş qapısı" adlandırarmışlar. Sonralar həmin gün Günəş Tanrısı Mitranın doğum günü kimi qeyd edilməyə başlayır. İran dövlətini diz çökdürən romalılar Mitranı da özününküləşdirirlər. Qədim Romada təqvim aylarındakı günlərin sayı müxtəlif idi. Hətta rüşvət verib onları dəyişdirmək mümkün olsa da, Yeni il həmişə yanvarın 1-i gəlirdi və Mitranın doğum günü – İşığın Qaranlıq üzərində qələbəsi günü də bununla üst-üstə düşürdü. Yanvar qədim Roma ilahisi Yanusun şərəfinə adlandırılmışdır. Qriqori təqvimində ilin 1-ci ayıdır. Qriqori təqvimi 1582-ci ildə qəbul edilmişdir.

İsa Peyğəmbərin doğum günü də dekabrın son günlərinə təsadüf edir. Beləcə bu bayram həm yeni ilin gəlişini, həm həyatın ölüm üzərində qələbəsini, həm də Milad gününü özündə birləşdirmiş oldu.

Yeni il bayramını bərli-bəzəkli şam ağac olmadan təsəvvür etmək qeyri-mümkündür. Bəs Yeni il bayramında yolka bəzəməyin mənası nədir? Çoxları şam ağacları bəzəmək ənənəsini də xristian diniylə əlaqələndirir. Əslində isə, həyat rəmzi olan şam ağacının bəzənməsi tarixi xristianlıqdan əvvəl başlayıb və hansısa bir dinlə bağlı deyil. Hələ miladdan çox-çox əvvəl qədim Misirin sakinləri dekabrın ən qısa günlərində yaşıl palma ağaclarını evlərinə gətirirdilər. Bu, həyatın ölüm üzərində qələbəsinin rəmzi idi. Romalılar evlərini yarpaqlarla bəzəyirdilər. Druidlər palıd budaqlarına qızıl almalar asıb qış bayramını qeyd edirdilər. Orta əsrlərdə qırmızı almalarla bəzədilmiş həmişəyaşıl ağaclar dekabrın 25-də qeyd edilən Adəm və Həvva bayramının rəmzi idi.

Azərbaycanlıların rus dilindən tərcümə edilən Şaxta baba kimi tanıdıqları şəxsin dünyanın müxtəlif ölkələrində fərqli adları var: Sant Nikolas, Nikolas of Mariya, Santa Klaus, Pere Noel, müqəddəs ata Kristmas bunlardan bəziləridir. Hazırda dünyada qeyd olunan "Yeni il" bayramının bir çox ənənələri Miladdan qaynaqlandığı üçün Şaxta baba-Santa Klaus obrazının əsli də xristian dünyasında axtarılır.

Türkiyənin Muğla vilayətinin Patara şəhərində Santa Klaus kilsəsi mövcuddur. Nikolas adlı keşiş III əsrin axırlarında Patara şəhərində varlı tacir ailəsində anadan olmuşdur. Orta yaşlarında Nikolas Patara şəhərinin baş keşişi seçilmişdi. Əfsanəyə görə həmin şəhərdə kasıb bir kişinin 3 qızı vardı. Qızlar cehiz üçün pul tapa bilmirdilər. Keşiş Nikolas bundan xəbər tutub bir gecə gizlincə bu qızların evinə gəlir. Bacadan evə qızlar üçün pul kisəsi atır. O gündən xristianlar maddi problemi olanlara müqəddəs Nikolasın kömək edəcəyinə inanırlar. Keşiş Nikolas öləndən sonra onun qəbri milyonlar ümid yeri olmuşdur. Nikolas 343-cü ildə 65 yaşında vəfat etmişdir.1087-ci ildə müsəlman türklər Patara şəhərini fəth etmişdilər. Bundan sonra xristian tacirlər gizlicə Nikolasın qəbrini açmış, sümüklərini oğurlayaraq, Bari adasına aparmışdılar.

Dünyanın hər yerində bütün insanlar Yeni ili eyni ümidlərlə — xoş möcüzələr, yeni uğurlar, xoşbəxtlik arzusuyla gözləsələr də bayramı hərə öz adət-ənənəsinə uyğun qarşılayır.

A. A. ƏLİYEVA

## GÜRCÜSTAN PAYTAXTINDA QEYRİ-ADİ YOLKA FESTİVALI KEÇİRİLİR

Yeni il yolkaları şənliyi Tbilisinin mərkəzindəki tarixi küçələrdən birində sərgilənir. Yeni il ərəfəsində baş tutan bu sərgidə təqdim olunan yolkalar qeyri-ənənəvi materiallardan hazırlanmalarına görə fərqlənir.

Şampan butulkalarından, inşaat daşlarından hazırlanmış və çiçəklərlə bəzədilmiş Yeni il yolkalarını bayram ərəfəsində Gürcüstan paytaxtının küçələrində təşkil olunmuş Yolka festivalında görmək mümkündür.

Artıq ənənəvi hal almış bu qeyri-adi festivalda müxtəlif gürcü şirkətlərinin tərtibat verib hazırladığı ondan artıq yolka Tbilisi sakinlərinə və paytaxtımızın qonaqlarına xoş anlar bəxş edir.

Yolka festivalının 3 yanvar 2016-cı il tarixinədək keçirilməsi nəzərdə tutulur.

# SƏNƏTDƏN UMULAN HƏYA DAVASI

*Əcnəbi seyrə balonlarla çıxır,*
*Biz hələ avtomobil minməyiriz.*

*Sabir gözyaşını, içinin yanğısını gülüşlərlə bəzəməyə məcbur olmuş insanlarımızdan idi. Elə ona görə də, bu qəbildən olan misralar sərf edirdi. Doğruları muncuq misalı sapa düzüb, boynumuzdan asırdı Sabir… Və Sabir kimi onlarlası. Maraqlısı isə odur ki, yüz il əvvəl böyük satira ustası yalnız zamanında yaşananları nəzmə çəkməmişdi, onun həm də yüz il sonra, yəni bu gün olacaqları dalağı sancmış, bu günün halını da hiss eləmişdi. Biz doğru deyəni doqquz dərədən qovmağımızla məhşuruq. Necə deyərlər, xeyrimizə deyiləni də şər anlayıb yola davam etməkdən əsrlərdir usanmamaqdayıq. Elə yuxarıda saydığım misralar bizlərlə əcnəbilərin arasındakı fərqin elə hər zaman yerlə göy arası qədər olduğunu isbat edir. Səd əfsuslar ki, bu işin hər zaman yer tərəfində biz oluruq. Bu yazdıqlarının heç gördüklərinin dörddə biri də olmadığını bildirir. Gör indi biz nə haldayıq.*

Bəli, qəbul edirəm, danışdıqlarım cəncəl görünə bilər, bu nə sayaqlayır təsiri də bağışlaya bilər, lakin tələsməyək…

Bir xalqın və əlbəttəki, bu xalqın fərdlərinin inkişaf etməsi, insan mərtəbəsinə yüksəlməsi üçün bir çox zadlara ehtiyac var. Bir çoxuna ehtiyac olduğu qədər, bir çoxundan da xilas olub təmizlənməsək, başımızı ağrıtmayaq, bizdən adam olan deyil. Sözarası onu da qeyd etməliyəm ki, dava-dərmanın təsir göstərə bilməsi üçün xəstədə sağalmağa dair cüzi də olsa istək olmalıdır.

Nəyəmi ehtiyacımız var? – hamının bir nəfəsə razılaşacağına əminəm ki, ilk ehtiyacımız olan təhsildir. Doğru, düzgün dünyəvi təhsil. Yox yanlışa yol verdim, təhsildən əvvəl bizə lazım olan təhsilin, kitabın önəmini anlamaqdır, vacibliyini qavramaqdır. Təhsilin təkcə diplom, iş, pul vasitəsi olmadığını anlamaqdır. Yoxsa az əvvəl də dediyim kimi, bizdən adam olan deyil. İnciyib xətircəm düşməyə də gərək yoxdur deyə düşünürəm, çünki, bir qırıq da ola yalan-yanlış söyləmirəm vəziyyət budur.

Amma, kimə deyirsən hamımız eşitdiyimizi bir qulağımızdan alıb, o birindən ifraz etməklə məşğuluq. Kitab, təhsil, ədəbiyyat kimi şeylər bizlərə artıq görünür.

Biz bunlara ayrılan vaxtı da itirilmiş sayırıq. Elə bu səbəbin yardımıyla da uzun əsrlərdir yerimizdə sayırıq. Təfəkkürümüz, dünyagörüşümüz zərrə qədər artmadan bu dünyadan köçüb gedirik. Buna min cür bəhanə uyduranlarımız, yüz cür oyundan çıxanlarımız var. Halbuki, elm, sənət, ədəbiyyat bir xalqın həyatda və tarixdə qalması üçün ən başlıca meyarlardan biridir. Elmimiz haqqında dedik, ölmüşük, ağı deyənimiz çatışmır. Kor düşüncəmiz yüz il əvvəlkindən bir qırıq da geri qalmır. Bizi qınamağa da əlim gəlmir, çünki mənəvi inkişafımızın qarşısını kəsən dağ boyda maddi çətinliklər var. Məhz maddi çətinliklər imkan vermir ki, sənətimiz, mədəniyyətimiz inkişaf etsin. Ona görə də hər keçən gün bir az daha batdığımız zibillikdən həzz almağa, ərtafa bizdən saçılan üfunəti vecimizə almamağa başlayırıq. Lakin, möcüzə kimi bir şey olur arada... Bir və ya bir neçə gənc yaxşı bir şey etmək istəyir. Biri rəsm çəkir, biri musiqi ilə başını qatır, digəri teatrla... Bunu bu işə könül verdikləri üçün edirlər. Kimiləri oğurluğa, kimiləri vicsansızlığa könül verərkən, qəhrəmanım olan gənclər isə sənətə, dolayısı ilə gözəlliyə könül verirlər. Biz isə əlimizdə, ruhumuzda olan palçıqdan onlara da ataraq, onların sənətini də ləkələməyə çalışırıq. İndi isə gələcəm bu sayımızda bu mövzudan yazmağımın səbəbinə... Ötən həftə adını "Yeni yol"dan da tanıdığınız, əməkdaşımız, gənc istedadlarımızdan biri Anar Rafiqoğlu Gürcüstanda yaşayan azərbaycanlıların qarşısında ard-arda iki gün stand up tamaşa ilə, yəni bir nəfərlik komediya şousu ilə çıxış etdi. O, cəmiyyətdə olan problemləri gülüş, zarafat dilində canlandırdı. Tənqid də etdi, təqdir də. Hər kəs şok olmuş şəkildə izlədi. Çünki daha öncə belə bir şey görməmişdilər. Çünki heç kəs, onlar üçün öz paytaxtlarında, öz dillərində bu cür peşəkar tamaşa nümayiş etdirmirdi. Ol səbəbdən də aclıqdan çıxmış kimi hər kəs izləyir, alqışlayır və gülürdü. Aktyorun məqsədi isə əlbəttə ki, yalnız güldürmək yox, həm də düşündürmək idi. Çünki sənəti sənət edən və əyləncədən ayıran yeganə ünsür də, eyni zamanda həm əyləndirib, həm düşündürə bilməkdir. Məhz bu görməmişliyin yaxşı tərəfi olduğu kimi, pis tərəfi də özünü tez zamanda biruzə verir. Səhnədəki zarafatlardan xoşu gəlməyən gənclərdən biri özünü salır səhnənin arxasına, aktyorun otağına, yapışır yaxasına ki, bu sonuncu dəfən olsun, bir də belə şou göstərmirsən. Belə, yəni açıq-saçıq zarafatların da istifadə edildiyi şou... Xatırladım ki, bu hadisə elanında da, afişasında da , biletlərində də 16+, yəni 16 yaşından yuxarı kütlə üçün nəzərdə tutulub işarəsi olan bir tamaşanın səhnə arxasında baş verir. Bəli, biz aktyoru təhdid edirik, hədə-qorxu gəlirik. Narkomana, şərəfsizə, əxlaqsıza səs çıxara bilməyən biz, həyatın gerçəkliyini sözlərlə gözlər önünə sərən insanın üstünə cumuruq. Minlərlə problemin, boğazdan aşan yüzlərlə azarın birinə bir məlhəm ola bilməyən gənc, hamını özü kimi mənasız görmək istəyir. Səhnədə danışılandan utanıb. Yanındakı xanımlardan həya edib və cuşa gələn qeyrəti onu bu hərəkətə vadar edib.

Daşını tök, ay Allah... Gör, qeyrətin müdafiəsi kimlərə qalıb. Hələ bu oxuyanın, tələbənin, gələcəyin "ziyalı"sının reaksiyasıdır. Biz elə həmin millətik, Məhəmməd Fizulinin 9 axçasına göz dikən, Sabirə sabun bişirtdirən, səhnəni Ərəblinskidən məhrum edən xalqıq.

İndi, söz deyəndə "çest"imizin tezcə zədələnməsi də məhz bundan qaynaqlanır... Boş qazanın səsi gur gəlir çünki... Bax, o səbəbdəndir ki, Sabirin sümükləri sızıldamaqdan heç zaman qurtarmayacaq...

Afayət AFİQ

## 2016-CI İLİN İYULUNDA GÜRCÜSTAN PAYTAXTINDA ATƏT PA-NIN 25-Cİ SESSİYASI KEÇİRİLƏCƏK



ATƏT Parlament Assambleyasının illik sessiyası 1-5 iyul 2016-cı il tarixində Gürcüstan paytaxtında keçiriləcək.

2016-cı ilin iyulunda Tbilisidə keçiriləcək ATƏT PA-nın 25-ci sessiyasına 57 ölkədən 700-dək siyasətçi qatılacaq.

ATƏT PA özünün illik sessiyasını hər il iyulda çağırır, demokratik proseslərə tərəfdar olan Assambleyanın üzvləri Assambleyanın rəhbər şəxslərini seçirlər, ATƏT-in və milli parlamentlərin işlərinə köməyə istiqamətlənmiş bəyannamə və qətnamələr qəbul edirlər. Ötən bəyannamələr ATƏT-in kütləvi informasiya vasitələrinin azadlığı məsələləri üzrə nümayəndəsi və ATƏT-in iqtisadi-ekoloji fəaliyyət koordinadoru postunun yaradılması ilə nəticələnən tövsiyyələri özündə ehtiva edirdi.

Avropa, Asiya və Şimali Amerikanın 56 ölkəsindən 320 parlamentariyi birləşdirən ATƏT-in Parlament Assambleyası parlament dialoqu üçün forumdur, seçkiləri müşahidə etmək üçün missiyalar göndərir və siyasi məsələlərə aid, eləcə də təhlükəsizlik, iqtisadi, ətraf mühit və insan hüquqları sahəsində öhdəliklərin yerinə yetirilməsi məqsədilə beynəlxalq əməkdaşlığı möhkəmləndirir.

## GÜRCÜ DƏNİZÇİLƏRİNİN TÜRK GƏMİLƏRİNDƏ İŞLƏMƏLƏRİ SADƏLƏŞDİRİLİR

Gürcüstan iqtisadiyyat nazirliyinin yaydığı məlumata görə, Türkiyə bayrağı altında üzən gəmilərdə gürcü dənizçilərinin işə daxil olmaq qaydaları sadələşdirilir.

Gürcüstan iqtisaiyyat və sabit inkişaf nazirliyinin dəniz nəqliyyatı agentliyinin nümayəndə heyətinin İstanbula səfəri çərçivəsində Gürcüstan və Türkiyə arasında dənizçilərin səlahiyyətlərinin tanınması haqqında ikitərəfli memorandum imzalanıb.

Memoranduma görə, bundan sonra Gürcüstan dənizçiləri beynəlxalq gəmiçilik reyestrinə daxil olunmuş türk bayrağı altında üzən 600-ə yaxın gəmidə işləyə biləcəklər. Memorandum beynəlxalq dənizçilik təşkilatı konvensiyasının tələblərinə uyğun olaraq imzalanıb.

## AZƏRBAYCANLI TURİSTLƏR GÜRCÜSTANA ÜSTÜNLÜK VERİRLƏR

Gürcüstan gələn il daha çox azərbaycanlı turisti cəlb etmək üçün yeni marketinq addımları atamağı nəzərdə tutur. Bizim həmvətənlərimiz istirahət və əyləncə üçün qonşu ölkəni çoxsaylı kazinoları və ucuz restoranlarına görə çox sevirlər. Azərbaycanlılar arasında qumar oyunlarını sevənlər az deyil, ləziz yeməkləri sevənlər isə daha çoxdur.

Azərbaycan turizm assosiasiyasının başçısı Nahid Babayev haqqın.az-a belə məlumat vermişdir ki, yeni il ərəfəsində Gürcüstana gedən azərbaycanlı turistlərin sayı 10-20% artacaq. Azərbaycanlıları Gürcüstana bir neçə səbəb cəlb edir. Gürcüstana avtomobillə, qatarla və hətta 50 dəqiqəyə təyyarə ilə çatmaq asandır. Gürcüstana səfər Türkiyəyə nisbətən çox ucuz başa gəlir, Avropa ölkələrindən isə danışmağa dəyməz.

Azərbaycan səyahətçilərini bizdəkindən iki dəfə ucuz olan restoranlar cəlb edir. Qumar oyunlarını sevənlər isə ruletkada və kazinoda qumarla əylənə bilərlər.

Bundan başqa Bağırov hesab edir ki, Gürcüstanda kirayələnən mənzillər də uyğundur. "Bahalı beşulduzlu otellərə həmişə alternativ var. İkiulduzlu mehmanxanalar və kirayə mənzillər təklif olunur", – o, təsdiqləyib.

Gürcüstan turizm administrasiyasından isə bildiriblər ki, azərbaycanlılar Gürcüstana 3-4 günlük gəlirlər. Turist belə səfər üçün təxminən 450 lari (198 manat) xərcləyir.

Məhz postsovet məkanında Azərbaycan Gürcüstana gələn turistlərin sayına görə liderdir. Yalnız 11 ay ərzində demək olar ki, Azərbaycandan 1 milyon 300 min turist gəlib. Bu isə keçən illə müqayisədə turistlərin 9% artması deməkdir.

"Azərbaycan dəmir yolları" QSC indidən yeni il ərəfəsində yük və sərnişin daşınmasının həcminin kifayət qədər artacağını proqnozlaşdırır.

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

31 dekabr 2015-ci il
№0014 (14)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | "იენი იოლი" საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## "ZARAFAT KOLLEKSİYASI 2" YENİ İL ƏRƏFƏSİNDƏ TAMAŞAÇILARI İLƏ GÖRÜŞDÜ

21-22 dekabr tarixində Tbilisidə yerləşən Atoneli teatrında gənc rejissor və aktyor Anar Rafiqoğlu iki gün dalbadal tamaşaçılar qarşısına çıxaraq, özünün hazırladığı "Zarafat kolleksiyası 2" tamaşasını nümayiş etdirdi. Birincisi oktyabr ayında nümayiş etdirilmiş "Zarafat kolleksiyası" bu dəfə fərqli mövzuları, fərqli forma və yozumu ilə tamaşaçılara təqdim edildi.

Gürcüstanda stand up komediya janrı ilə məşğul olan aktyorun yeni il üçün özəl şousu izləyənlər tərəfindən maraqla və alqışlarla qarşılandı. Yeni il abu-havası fonunda cəmiyyətdəki problemlərin qabardıldığı düşündürücü zarafatlardan ibarət şounu həm paytaxtdan, həm də regionlardan gələn çox sayda tamaşaçı izləmək imkanı əldə edib. Tamaşanı izləyənlər arasında gənclər və tələbələrlə yanaşı, yaşlı nəslin nümayəndələri, o cümlədən dövlət və ictimai təşkilatların nümayəndələri də var idi.



Onu da əlavə edək ki, dekabrın 26-da "Borçalı" ictimai cəmiyyəti 2016-cı ildə qazandığı sənət uğurlarına görə gənc aktyoru ilin "Şərəf" medalı ilə təltif edib.

## FORBES BAKURİANİNİ UCUZ DAĞ XİZƏK KURORTLARI ONLUĞUNA DAXİL EDİB

Forbes Travel.ru turizm xidmətilə birlikdə vizasız getməyin mümkün olduğu Rusiyanın və yaxın xarici ölkələrin ucuz dağ xizək kurortlarının reytinqini elan edib. Bakuriani bu onluqda doqquzuncu yeri tutub.

Yanvarın birinci yarsı üçün iki nəfərin istirahət büdcəsinə otel, kafedə nahar və sürüşmə yerinə pulsuz çatdırılma xərcləri daxildir.

Rusiyanın və yaxın xarici ölkələrin dağ xizək kurortları onluğuna daxil olan istirahət yerləri bunlardır: Belokurixa (Altay diyarı), Loqoysk (Belarus), Zavyalixa (Çelyabinsk vilayəti), Krasnaya sopka (Kamçatka), Karakol (Qırğızıstan), Çimqan (Özbəkistan), Şahdağ (Azərbaycan), Bukovel (Ukrayna), Bakuriani (Gürcüstan), Çimbulak (Qazaxıstan).

Bakuriani Tbilisidən 180 kilometr aralıda yerləşir. İstirahət büdcəsi 4100 rubl (təxminən 140 lari) təşkil edir.

Qafqazın qədim dağ xizək kurortu Bakuriani XIX əsrdən fəaliyyət göstərir. Dağlarla əhatə olunmuş kurort 1700 metr yüksəklikdə yerləşir.



Burada Beynəlxalq dağ xizək idmanı federasiyasının sertifikatını almış bir neçə dağ xizək yolu fəaliyyət göstərir. Yeni başlayanlar üçün və ikipilləli yol fəaliyyətdədir. Yoxuşun maksimum hündürlüyü 2850 metrdir.

## "KOSALI" GÜLƏŞÇİLƏRİ GÜRCÜSTAN BİRİNCİLİYİNDƏN UĞURLA QAYITMIŞLAR



26-28 dekabr tarixində Rustavi şəhərində sərbəst güləş üzrə keçirilən Gürcüstan birinciliyində Qardabani rayonunun "Kosalı" komandası da uğurlu çıxış etmiş və komandanın üç nəfər nümayəndəsi birinciliyin qalibi olmuşdur.

"Kosalı" komandasının baş məşqçisi Novruz Abdullayevin məlumatına görə, yeni il ərəfəsində keçirilmiş bu yarış yetirmələri üçün uğurlu olmuş, onlardan üç nəfəri birinciliyin qızıl medallarına layiq görülmüşdür. 47 kiloqram çəki dərəcəsində Aqil İsmayılov, 66 kiloqram çəkidə çıxış edən Seymur Ömərov və 73 kiloqram çəki dərəcəsində çıxış edən idmançılar arasında Raul Abdullayev komandamızı ləyaqətlə təmsil edərək, bütün rəqiblərindən güclü olduqlarını sübut etmiş, fəxri kürsünün ən yüksək pilləsinə qalxmışlar.

Xatırladaq ki, "Kosalı" komandası bir sıra ölkə və beynəlxalq miqyaslı yarışlarda uğurlu çıxışları ilə fərqlənir.

## YENİ NƏŞRLƏR

### TBİLİSİDƏ GÜRCÜ DİLİNDƏ "MƏŞHƏTİ FOLKLORU" KİTABI NƏŞR OLUNUB



Tbilisidə gürcü dilində "Məşhəti folkloru" kitabının I cildi nəşr olunub.

APA-nın Gürcüstan bürosunun məlumatına görə, dekabrın 23-də Gürcüstan Mədəniyyət Nazirliyində kitabın təqdimatı keçirilib.

Məşhəti türklərinin folklorundan bəhs edən kitab 915 səhifədən ibarətdir. Kitabda şair və aşıqların bədii yaradıcılığından seçmə nümunələri folklorşünas alim Avtandil Beridze toplayaraq tərtib edib.

Kitabda qeyd olunub ki, Məşhəti türklərinin bədii yaradıcılığını, folklor nümunələrini keçən əsrin 80-ci illərində araşdıran ilk alimlərdən biri əslən Borçalıdan olan, Gürcüstan Ədəbiyyatşünaslıq Akademiyasının həqiqi üzvü, TDPU-nun Azərbaycan dili və ədəbiyyatı kafedrasının müdiri, mərhum professor Valeh Hacıyev olub. Nəşrdə həmçinin bildirilib ki, Məshəti türklərinin məskunlaşdığı Samsxe-Cavaxeti bölgəsində Azərbaycan dilində sazla ifa edilən mahnılar çox olub.

### DATO TURAŞVİLİNİN "GÜRCÜ QADINI" ƏSƏRİNİN MÜZAKİRƏSİ KEÇİRİLİB




Türkiyənin Gürcüstandakı səfirliyinin yaydığı məlumata görə, "Gürcü qadını" adlı kitabı bir qədər əvvəl türk dilinə tərcümə olunaraq, Türkiyədə nəşr olunan məşhur gürcü yazıçısı Dato Turaşvili dekabrın 18-də Tbilisidəki Yunus Əmrə Türk Mədəniyyət mərkəzində (YƏTMM) həmin romanı ilə bağlı təşkil olunan müzakirələrdə iştirak edib.

Mərkəzin türk dili kurslarının tələbələrinin, türk vətəndaşlarının və Türkiyənin Tbilisidəki səfirliyinin əməkdaşlarının da qatıldığı müzakirələrdən sonra müəllifin türk və gürcü heyranları üçün kitabın imzalanması mərasimi təşkil olunmuşdur.

## ARTIQ DİŞ PLOMBU LAZIM OLMAYACAQ

Yapon alimi Kazuye Yamaqaşi şəxsi gigiyena sahəsində inqilabi yenilik yaradıb. Onun ixtira etdiyi diş pastasının köməyi ilə dişlərdəki deşik və çatları, eləcə də diş minasını stomatoloqun köməyi olmadan tez və ağrısız bərpa etmək mümkündür. Ingiltərənin The Daily Telegraph qəzeti bu barədə məlumat yayıb.

Öz tərkibinə görə pasta diş minasına bənzəyir, onu birbaşa dişdəki çatlara sürtmək olar. Material dişin əsas komponenti olan apatit-hidroksidlə təcrübə nəticəsində əldə olunub.

Əvvəlcə maddədə olan turşu çatlamış mina təbəqəsinin səthini yüngülcə əridir. Üç dəqiqə keçdikdən sonra pasta krisallaşır və süni material təbii minanın strukturu ilə kip şəkildə birləşir. Üstəgəl, yeni kəşf çox yaxşı bakteriya əleyhinə vasitədir.

Yapon stomatoloqlarının həyata keçirdikləri sınaq göstərir ki, belə pastanın köməyi ilə müalicə olunmuş diş sağlam dişdən heç nə ilə fərqlənmir. Fərq heç mikroskop altında da seçilmir.





Təsisçi:
"Gürcüstan gənclərinə Yardım və Maarifləndimrə Təşkilatı"

Redaktor:
Afiq Muxtaroğlu
Yayım Direktoru:
Hacı Bəkiroğlu

Ünvan: Qardabani şəh, Kolxoz küç, 4
Tel/ (+995) 595 92 25 70
599 54 12 92
email: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir.
Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər.
Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır.
Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.